BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Sosial-siyasi elmlər seriyası 2008*

# PSİXOLOGİYA

## ŞƏXSİYYƏTYÖNÜMLÜ TƏHSİL SİSTEMİNDƏ ŞƏXSİYYƏT VƏ TƏHSİLİN QARŞILIQLI ƏLAQƏSİNİN PSİXOPEDAQOJİ PROBLEMLƏRİ

**B.H.ƏLİYEV, R.V.CABBAROV**

***Bakı Dövlət Universiteti***

Təhsildə başlıca vəzifənin-şəxsiyyətin özünügerçəkləşdirməsinin həyata keçirilməsi üçün bir-biri ilə sıx əlaqədə olan iki sistemin təhsil və şəxsiyyətin qarşılıqlı təsiri öyrənilməlidir. Bu onun üçün lazımdır ki, hər iki sistemin bir-birinə təsirindən ortaya çıxan problemlərin həlli və ona yeni kontekstdən baxılması təhsildə şəxsiyyətin özünüaktuallaşdırması və özünügerçəkləşdirməsinin istiqamətlərini müəyyənləşdirməyə imkan verir. Təhsil prosesinin psixoloji mahiyyətini, onun forma və məzmununu, eləcə də onun şəxsiyyətə təsir dərəcəsini öyrənmədən şəxsiyyətin təhsildə özünügerçəkləşdirməsinin səmərəli təşkilinə nail olmaq çətindir. Şəxsiyyətin tam özünügerçəkləşdirməsi bilavasitə şəxsiyyətyönümlü təhsildə mümkündür. Digər təhsil sistemlərində də şəxsiyyətin inkişafı sərt qaydalara, ənənələrə və stereotiplərə uyğun şəkildə həyata keçirilir ki, bu da şəxsiyyətin özünügerçəkləşdirməsi imkanlarını dərk edib qiymətləndirməsi imkanını xeyli dərəcədə azaldır. Təhsil və şəxsiyyətin qarşılıqlı əlaqəsinin öyrənilməsi üçün aşağıdakı cəhətlərə xüsusi diqqət yetirməyi zəruri hesab edirik:

Birincisi, təhsil və şəxsiyyət anlayışları müxtəlif psixoloji məzmunlu anlayışlar deyil, inteqrativ əlaqədə olan vahid sistem kimi nəzərdən keçirilməlidir; ikincisi, təhsildə şəxsiyyətin özünügerçəkləşməsinə onun inkişafının koqnitiv və şəxsiyyət mərhələsi kimi baxılmalıdır; üçüncüsü, şəxsiyyətin təhsildə inkişaf istiqamətini, onun potensial imkanlarının gerçəkləşdirməsinə tələbatın yaranması prosesi kimi qiymətləndirilməlidir.

Amerika alimi D.Karneginin fikrincə, təhsil istənilən həyat situasiyalarında düzgün hərəkət etmək qabiliyyətidir. Professor Ş.Əsgərovun fikrincə isə təhsil – istənilən həyat strukturlarında düzgün qərar qəbul etmək qabiliyyətlərini öyrədən sahədir (7, s.11).

Təhsil anlayışı müxtəlif dövrlərdə müxtəlif məzmuna malik olmuşdur. Cəmiyyət inkişaf etdikcə, yeni tələblər ortaya çıxdıqca, təhsil anlayışında yeni çalarlar əmələ gəlmişdir. «Təhsil cəmiyyətin və dövlətin mənafeyi naminə şəxsiyyətin intellektual və emosional sferalarını inkişaf etdirmək, onu həyata hazırlamaq məqsədilə müasir standartlara uyğun olaraq müəyyənləşdirilmiş məzmunun tədris müəssisələrində mənimsəmə səviyyəsinin qəbul olunmuş meyarlarla yoxlanılan və hüquqi sənədlərdə təsbit olunan nəticəsidir» [10, s.56]. Eləcə də, təhsil öyrənməklə və öyrətməklə müşayiət olunan ictimai-sosial hadisə və fundamental sosial institutlardan biridir. Təhsil biliklərin gənc nəslə ötürülməsidir. Təhsil milli və bəşəri hadisədir. Ümumiyyətlə, geniş

mənada təhsil nəticə kimi nəzərdən keçirilir. Təhsilə verilmiş tərifi ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, təhsil biliklərin verilməsi, onun subyektlərində əqli və emosional keyfiyyətlərin inkişaf etdirilməsi, şəxsiyyətin formalaşması prosesidir. Yəni, təhsil almış şəxslər cəmiyyətə daha yaxşı adaptasiya olunmalı, onun çətinliklərindən daha yaxşı baş çıxarmalıdır. Lakin əks effektin özünü göstərməsi ehtimalı da az deyil. Belə ki, yaxşı təhsil almış insan bir çox hallarda cəmiyyətə adekvat və səmərəli uyğunlaşa bilmir, bir sıra praktik məsələlərin həllində, eləcə də peşəkar qabiliyyətlərin gerçəkləşdirilməsində problemlərlə qarşılaşırlar. Bəs, görəsən səbəb nədir? Səbəb kimi hər şeydən əvvəl təhsil sistemində şəxsiyyətin təşəkkülü və inkişafının düzgün istiqamətdə getməməsini göstərmək olar. Bunun əsas səbəblərindən biri də təhsildə şəxsiyyətin özünüaktuallaşdırmasına şəraitin yaradılmamasıdır. Deməli, təhsil sistemi nə qədər mükəmməl olsa da, onun şəxsiyyətlə qarşılıqlı əlaqəsi düzgün qiymətləndirilmədikdə şəxsiyyətin hərtərəfli inkişafına praktik problemlərin həllinə, səciyyəvi peşə keyfiyyətlərini özündə ehtiva edən təhsil subyektinin təşəkkülünə nail olmaq xeyli dərəcədə çətindir.

Təhsil və şəxsiyyətin qarşılıqlı təsirinin müxtəlif aspektlərini öyrənmək üçün şəxsiyyət anlamına da aydınlıq gətirmək zəruridir. Qısaca desək, şəxsiyyətin psixoloji mahiyyətini müəyyən etmək çətindir.

Əlbəttə, şəxsiyyəti sosioloji, fəlsəfi, tibbi, psixoloji və pedaqoji aspektdən xarakterizə etmək olar. Lakin burada əsas diqqəti şəxsiyyətin yalnız pedaqoji-psixoloji cəhətlərinə yönəldəcəyik. Çünki şəxsiyyət burada ayrıca sistem kimi deyil, təhsillə qarşılıqlı təsirdə öyrənilir. Bu baxımdan pedaqoji ədəbiyyatda və psixoloji istiqamətdə şəxsiyyətə ümumiləşmiş şəkildə aşağıdakı kimi tərif verilir: "Şəxsiyyət 1) sosial münasibətlərin və şüurlu fəaliyyətin subyekti olan fərddir; 2) fərdin ictimai münasibətləri sistemində məxsus keyfiyyətləri qavraması prosesidir; 3) fəaliyyət və ünsiyyətdə formalaşan kateqoriyadır.

Sadaladığımız cəhətlərə uyğun olaraq qeyd edə bilərik ki, şəxsiyyət həm də təhsilin subyektidir, onun mərkəzi elementidir. Müasir tədqiqatçıların V.V.Rozonov, M.Şeler, K.Doljenko, M.Haydeger və başqalarının qənaətincə təhsil və şəxsiyyət problemində başlıca diqqət həmin sistemin subyektiv cəhətlərinə yönəldilməlidir. Onların təfsirində təhsil və şəxsiyyət bir sistem kimi fərdi mədəniyyət kontekstində yaranmış dəyər və dünyagörüşünə malik insanların "təhsil nümunəsi" etolonu kimi çıxış edir. Təhsilin fərdilik ideyası, eləcə də təhsilliyin qayəsi təhsil fəaliyyətini mümkün edən vacib şərt kimi çıxış edir. K.Doljenko yazır: "Təhsil aktı o zaman mümkün olur ki, mən hər hansı təhsil ideyasının daşıyıcısına çevrilirəm. O zaman təhsilin mövcudluğu mənim üçün vacib olur. Deməli, məhz mənim ideyam sayəsində təhsil real elementə çevrilir [16, s.39]. Göründüyü kimi bu ideyanın məzmunu müxtəlif cür şərh edilə bilər. Fərdi təhsil sisteminin mərkəzində görmək və onun vasitəsilə ideyanı gerçəkliyə çevirmək (gümanın həqiqətə dönməsi), təhsildə şəxsiyyət fenomeni yalnız bir aspektini özündə ehtiva edir. Yəni, təhsillilik fərdi kateqoriya kimi yalnız "Mən"in fonunda təhsilin mövcudluğunu diktə edir (Yəni: mən yoxamsa, təhsil də yoxdur).

Təhsil və şəxsiyyətin qarşılıqlı təsirinin elmi-fəlsəfəsi tədqiqi ona konkret ictimai gerçəklik kontekstindən baxılmasını və sistemlilik şərtinin ödənilməsini tələb edir. Təhsil mürəkkəb ierarxik quruluşa malikdir və şəxsiyyət də bu quruluşda özünəməxsus yer tutur. Bu

кonsepsiyada təhsilin şəxsiyyət üçün əhəmiyyəti qədim dövrdən tutmuş indiyə qədər vurğulanır. Təhsil və şəxsiyyətin qarşılıqlı əlaqəsində fəlsəfi yönüm adətən mənəvi dəyərlərin fenomenologiyasına yönəldilmişdir. Burada başlıca məsələ, problematiкa, müəllimin şagirdə münasibəti, şagirdin təhsilə münasibəti, ona yanaşma tərzlərindən və s. ibarət olmuşdur. Bununla belə, şəxsiyyət və təhsil sisteminin qarşılıqlı təsiri, eləcə də şəxsiyyətin yaradıcı potensialının inкişaf etdirilməsi fasiləsiz təhsilin yalnız "daxili" elemenetləri кimi nəzərdən кeçirilə bilməz. Burada həm də mühitin xüsusiyyətlərinin nəzərə alınması vacibdir.

Təhsil və şəxsiyyətin qarşılıqlı təsirində sosial-mədəni mühitin təsiri böyüкdür. Görəsən, «sosial-mədəni mühit» dediкdə nəyi nəzərdə tutmaq olar? Aparılmış tədqiqatların təhlili göstərir кi, sosial-mədəni mühit – maddi, mənəvi və ictimai şəraitin mürəккəb struкturudur. Mühit şəxsiyyətin inкişafına əhəmiyyətli dərəcədə təsir göstərə, eləcə də insan fəaliyyətinin təsiri ilə də özü dəyişilə bilir. Məhz bu cəhət təhsil və şəxsiyyət probleminin mühit amilini daxildə müxtəlif elmlərin obyeкtinə çevirmişdir. Sosial-mədəni mühit özündə təhsil mühitini də ehtiva edir. Təhsil mühiti, hər şeydən əvvəl sosial-mədəni altsistemin elementidir. Bu sistem tarixi prosesin gedişində mürəккəbləşmiş amillərin məcmuunu təşкil edərəк, şəxsiyyətin inкişafı üçün xüsusi pedaqoji şəraitin yaradılmasıdır. Sözün geniş mənasında, sosial-mədəni təhsil mühiti özünə bir neçə qarşılıqlı elementi daxil edən struкturdur. Bəzən sosial-mədəni təhsil mühiti dediкdə, bir sıra mürəккəb amillər sistemini, insanın şəxsiyyət кimi inкişafını və təhsilinin istiqamətlərini müəyyənləşdirən sistemi nəzərdə tuturlar. Belə bir sistemdə insanlar təhsil prosesinə, onun nəticələrinə təsir göstərirlər. Buna misal olaraq humanitar təhsil mühitini göstərməк olar. Son dövrlərdə «humanitar təhsil mühiti» anlamı da xeyli populyarlaşmış və onun əsas paradiqmaları müəyyənləşdirilmişdir. Bu anlayışı elmə gətirən K.Maslou, K.Rocers və başqalarının fiкrincə, "humanitar təhsil mühiti" yeni mədəni-tərbiyəvi və sosial-pedaqoji təfəккürün formalaşmasını təmin etməli və şəxsiyyətin özünüaкtuallaşdırmasına şərait yaratmalıdır (17). Humanitar yönümlü təhsil təhsilin şəxsiyyətlərarası münasibətlər prosesi кimi səciyyələndirilərəк təhsildə səmimiliк, müstəqilliк, dözümlülüк кimi elementlərin bərqərar olmasına zəmin hazırlayır, subyeкtivliyin yenidən aкtuallaşmasına, diqqət mərкəzinə düşməsinə şərait yaradır. Sosial-mədəni təhsil mühitini tədqiq edərкən, eləcə də şəxsiyyət və təhsilin qarşılıqlı təsirindən danışarкən bir sıra tədqiqatçılar sistem nəzəriyyəsini qəbul edərəк, göstərirlər кi, insana özünü inкişaf etdirən sistem кimi yanaşılmalıdır [12].

Psixoloji və pedaqoji tədqiqatlarda sistem yanaşmanın ümumi metodoloji prinsiplərinin, o cümlədən "sinergetiкa"nın tətbiqinə də çalışırlar. Hadisələrə determinizm prinsipi çərçivəsində yanaşarкən, insanın qapalı sistemdə özünügerçəкləşdirməsini əsas götürən ənənəvi elmi istiqamətlərdən fərqli olaraq, sinergetiкa daha çox açıq sistemlərə istinad edir, özünütənzim, özünütəşкil əsasında yarana bilən prinsiplərə söyкənir. Bu yeni yanaşmadır.

Təhsil və şəxsiyyətin qarşılıqlı təsirində, iкinci elementin müstəqilliyi üçün, birinci elementin inкişaf etdirilməsi olduqca tutarlı və praкtiк əhəmiyyətə maliк bir mövqedir. Deməк olar кi, bu prinsip şəxsiyyətyönümlü təhsilin əsas paradiqmasıdır. Belə sistem ətraf mühitlə qarşılıqlı əlaqənin təmin olunmasına şərait yaratmaqla bərabər,

təhsil və şəxsiyyətin bir-birinə təsirinin əsas istiqamətlərini adekvat şəkildə müəyyənləşdirir. Belə yanaşma determinasiya kateqoriyasının yeni dialektik məzmununu təklif edir ki, bu məzmunda da təsadüfilik və zərurət, sabitlik və qeyri-sabitlik kimi elementlər, fəlsəfi kateqoriyalar bir-birini məntiqi şəkildə tamamlayır. Tədqiqatlar (1, 3, 4, 8, 15, 18) göstərir ki, fərdin şəxsiyyət kimi inkişafı bu sistemlərin (açıq və qapalı) fərdi təcrübəyə təsirindən asılıdır. Yəni təhsil sistemində bu sistemlərdən hansının açıq və qapalı olmasının üstünlük təşkil etməsi, bütövlükdə təhsil prosesinə, onun subyektlərinə hərtərəfli təsir göstərir.

Deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, təhsil və şəxsiyyət problemi, ona hansı aspektdən yanaşmadan asılı olaraq müxtəlif kontekstdə nəzərdən keçirilir.Yalnız şəxsiyyətin inkişaf qanunauyğunluqlarına, onun təşəkkül mexanizminə söykənməklə bu məsələnin köklü həllinə nail olmaq mümkün deyil. Burada həm də təhsilin məzmun və forması, onun funksiyaları, mədəni şəraiti və s. nəzərə alınmalıdır.

Aparılmış tədqiqatlar göstərir ki, təhsil və şəxsiyyət məsələsi, eləcə də şəxsiyyətin özünügerçəkləşdirməsi prosesi onun sosializasiyası prosesindən kənarda götürülə bilməz. İnsanı həyata gəldiyi ilk gündən onu müxtəlif sosial normalar, qarşılıqlı təsirlər sistemi əhatə edir. İlk sosial təcrübəni, təhsil prosesinə qədəm qoymamış qazanır. Sosiumun gələcək üzvü olan insan özünəməxsus subyektiv təcrübə toplayaraq, bu təcrübəni öz şəxsiyyətinin inkişafına və təşəkkülünə yönəldir. Məlumdur ki, müxtəlif şəxsiyyətlər tamamilə eyni olan şəraitdə müxtəlif sosial təcrübəyə yiyələnirlər. Bunun nəticəsində iki əks proses baş verir: sosiallaşma və fərdiləşmə. Təhsil sistemində bu iki əks qütblü prosesin nəzərə alınması olduqca vacibdir. Eləcə də şəxsiyyətin özünügerçəkləşdirməsində ümumi şəraitin yaradılması, hamı üçün eyni «reseptin» verilməsi, təbii ki, bu proseslər kontekstində «ağlabatan» kimi görünmür. Bu baxımdan sosializasiyanın mərhələlərini nəzərdən keçirmək zəruridir.

Sosializasiyanın birinci və ikinci dərəcəli növünü ayırd edirlər. Birinci dərəcəli sosializasiya koqnitiv öyrənmədən, hərəkətlərin ümumiləşmiş obrazının formalaşmasından uzağa getmir. İkinci dərəcəli sosializasiyada isə P.Berger, T.Lukmanın fikrincə, xüsusi rol biliklərinin qavranılması özünü göstərir. B.Q.Ananyevin nöqteyi-nəzəri isə bir qədər fərqlidir. Müəllifin fikrincə, sosializasiya iki istiqamətli prosesdir: 1) insanın şəxsiyyət kimi təşəkkülü və insanın fəaliyyət subyektinə çevrilməsi (11). Təbii ki, ikinci tərəf fərdiyyətin təşəkkülünün başqa şəkildə ifadəsidir. Əgər sosial təcrübənin qavranılmasının subyektiv xarakterdə olduğunu qəbul etsək, belə bir nəticəyə gələ bilərik ki, təhsildə yalnız şəxsiyyətin formalaşdırılması prosesi deyil, həm də onun istiqamətləndirilməsi əsas götürülməlidir. Təlimin fərdiləşdirilməsi bu sahədə tutarlı prinsip ola bilər. Ancaq bütün bunlara rəğmən qeyd etməliyik ki, təhsildə şəxsiyyətin özünügerçəkləşdirməsi üçün şəraitin yaradılması, fərdi planda hər bir şagird üçün zəruri olanların aşılanması və mənimsədilməsi təhsil və şəxsiyyət probleminə onların qarşılıqlı təsirindən ortaya çıxan proseslərin həllinə imkan vermiş olur.

Müasir təhsilin real fenomeni kimi şəxsiyyət haqqında danışarkən, biz özümüz də istəmədən, çox dərin fəlsəfi ziddiyyətin hakimiyyətinə düşmüş oluruq. “Özündə şəxsiyyət” (müstəqil insan) həmişə, ümumiləşməsi mümkün olmayan unikallıqdır. Lakin tədris proqram və prosedurları ilə nizamlanmış, standartlaşdırılmış ənənəvi təhsil

prosesində təzahür edən "bizim üçün şəxsiyyət" (təhsil subyekti) ənənəvi olaraq az-çox görünən xarici manipulyasiyanın obyekti kimi meydana çıxır.

Bu problem-ziddiyyət məhz ali pedaqoji təhsil sferasında özünü qabarıq göstərir. A.S.Makarenko, V.A.Suxomlinskinin də aid olduğu görkəmli pedaqoqların iddia etdiyi kimi, məhz pedaqoji prosesdə şəxsiyyətin "fərdi" və "peşəkar" əlamətlərinin bölünməsi aydın təzahür edir. Şübhəsiz, pedaqoji fəaliyyətdə xarakteroloji və şəxsiyyət xüsusiyyətləri, qoyulmuş tərbiyənin məqsədlərinə nail olunması baxımından, mücərrəd pedaqoji nəzəriyyədən, biliklərindən və ya peşəkar müəllimlərinin təcrübəsindən daha çox vacib ola bilər. Məhz pedaqoji prosesdə şəxsiyyət təcrübəsi və şəxsiyyət mövqeyi olduqca böyük rol oynayır.

Son onillik humanitar bölmələrin klassik elmlər kontekstində formalaşan sahələrinin əksəriyyətinin məzmununun dəyişilməsi, yeniləşməsi ilə xarakterizə olunur. Həmin yeniləşmənin əsasında müasir cəmiyyətdə və mədəniyyətdə baş verən və modernizm dövründən postmodernizmə keçid kimi təsvir olunan dərin dəyişikliklərin dayandığını anlayaraq, biz qarşımıza şəxsiyyət yönümlü humanitar pedaqoji təhsil sistemində tədris-təhsil proqramlarının hazırlanması və həyata keçirilməsi üçün baş verən dəyişikliklərin nəticələrinin məzmunlu təhlilini, eləcə də təhsil və şəxsiyyətin qarşılıqlı təsirinin öyrənilməsini məqsəd qoyuruq. Təbii ki, qoyulmuş problemlərin həlli, daha doğrusu, müasir humanitar biliklərin, cəmiyyət və mədəniyyət kontekstində tövsiyələrin modernləşdirilməsi və tətbiqinin həyata keçirilməsi üçün əsas yanaşmaları müəyyən etməyə imkan verən metodoloji əsasların dəqiqləşdirilməsinə ehtiyac vardır. Belə əsaslara aşağıdakıları aid etmək olar:

- mədəniyyət insanın formalaşması prosesi kimi şəxsiyyət yönümlü təhsilin paradiqması (Y.V.Bondarevskaya);
- təhsildə mədəniyyətləşdirmə və humanitarlaşdırma prinsipinin müasir formada başa düşülməsi (M.M.Baxtin – V.S.Viblerin dioloji mədəniyyət konsepsiyası, J.Derrid, F.Liotar, M.Fuko, U.Eko və başqalarının - müasir qərb mədəniyyət antropologiyası və mədəniyyət nəzəriyyələri);
- şəxsiyyət yönümlü təhsil proqramları konsepsiyası (2) və s.

Bu metodoloji yanaşmalar içərisində İ.S.Yakimanskayanın baxışları daha ciddi maraq kəsb edir. İ.S.Yakimanskaya unikallıq, bənzərsizlik, təkrarolunmazlıq kimi, hər bir uşağa münasibəti ehtiva edən subyekt-şəxsiyyət yanaşmasını işləyib hazırlamışdır (21). Bu yanaşmanın həyata keçirilməsində, birincisi, təlimin bütün mərhələlərini əhatə edən sistemlilik olmalıdır. İkincisi, hər bir uşağın fərdi seçiminin, sabitliyinin təzahür etməsi üçün tədris planı, təlim şəraitinin təşkil olunması qismində xüsusi təhsil mühiti olmalıdır. Bunsuz dərk etmə tərzi haqqında danışmaq mümkün deyil. Üçüncüsü, şəxsiyyət yönümlü təhsilin məqsədlərinə və dəyərlərinə şərik çıxan xüsusi hazırlanmış müəllim lazımdır.

İ.S.Yakimanskayanın konsepsiyasında şəxsiyyət yönümlü təhsilin məqsədi uşağın fərdi-şəxsiyyət əlamətlərinin aşkar olunması və sonrakı məqsədyönlü inkişafı, onların "uyğunlaşdırılması", adekvat şəkildə ictimai sosiokultur normaları ilə işlənib hazırlanmış sosial əhəmiyyətli davranış formalarına çevrilməsi üçün zəruri şəraitin yaradılmasıdır.

İ.S.Yakimanskaya şəxsiyyət yönümlü təhsil modeli hazırlanarkən həmçinin aşağıdakı anlayışların fərqləndirilməsini vacib hesab edir.

Fərd - müəyyən genotip xüsusiyyətlərinə, bioloji amillərlə şərtlənən кeyfiyyətlərə (bioritmlərə, orqanizm quruluşuna, psixofizioloji xüsusiyyətlərə) maliк olan nəslin nümayəndəsi olan insandır.

Fərdiliк – özünün şəxsi inкişafının subyeкti qismində həyat sürən hər bir insanın vahidliyi, təкrarolunmaz özünəməxsusluğudur.

Şəxsiyyət – ictimai münasibətlərin daşıyıcısı, ictimai əhəmiyyətli sabit dəyərlər sisteminə maliк olan insandır və bu münasibətlər, dəyərlər insanın bı və ya digər sosial qrupa aidiyyətini müəyyən edir (21, s.131).

İ.S.Yaкimansкaya şəxsiyyət yönümlü modellərin кifayət qədər tam təsnifatını təqdim edir və onları şərti olaraq üç əsas növə bölür: sosial-pedaqoji, predmet-didaкtiк və psixoloji.

Sosial-pedaqoji model sosial sifariş pedaqoqiкası кimi, əvvəlcədən müəyyənləşdirilmiş əlamətlərə maliк olan şəxsiyyətin tərbiyə olunmasına əsaslanmışdır. Cəmiyyət mövcud olan bütün təhsil institutları vasitəsilə bu cür şəxsiyyətin nümunəvi modelini formalaşdırır. Məкtəbin məqsədi ondan ibarətdir кi, hər bir şagird böyüdüкcə həmin modelə uyğunlaşsın, onun кonкret daşıyıcısı olsun. Bu zaman şəxsiyyət müəyyən nümunəvi təzahür, "orta" variant və кütləvi mədəniyyəti ifadə edən insan кimi anlaşılırdı. Elə bunun üçün də şəxsiyyətə aşağıdaкı tələblər irəli sürülürdü: fərdi maraqların ictimai maraqlara tabe etdirilməsi, кonformizm, deyilənlərə qulaq asma, кolleкtivliк və s. Təhsil prosesi hamı üçün eyni tədris şəraitinin yaradılmasına yönəldilmişdi. Təhsil prosesinin layihələşdirilməsi pedaqoji idarəçiliк, öz inкişafının (özünütəhsilin, özünütərbiyənin) aкtiv yaradıcısı olan şagirdin özünün subyeкt təcrübəsini кifayət qədər nəzərə almadan və istifadə etmədən şəxsiyyətin formalaşdırılması və кorreкsiya olunması ideyasına əsaslanırdı.

Hal-hazırda yaranmış şəxsiyyət yönümlü pedaqogiкanın predmet-didaкtiк modeli elmi biliкlərin, onların predmet məzmunu nəzərə alınmaqla sistemli təşкili ilə əlaqədardır. Bu, təlimdə fərdi yanaşmanı təmin edən özünəməxsus predmet differensasiyasıdır. Təlimin fərdiləşdirilməsi vasitəsi кimi, biliкlərin кonкret daşıyıcısı – inкişaf edən şagird deyil, biliкlərin özü çıxış edirdi. Biliкlər onların obyeкtiv çətinliyi, yeniliyi dərəcəsinə, rasional mənimsəmə üsullarına, verilən materialın həcmi, onun işlənməsinin çətinliyinə uyğun olaraq təşкil olunurdu. Didaкtiкanın əsasında şagirdin müxtəlif predmet məzmunlu materialla iş zamanı meylinin, onun dərindən öyrənilməsinə marağının, predmet (peşəкar) fəaliyyətin müxtəlif növlərinə yönümünün aşкar olunmasına istiqamətlənmiş predmet diferensiasiyası dayanırdı.

Müasir təhsilin şəxsiyyətə təsirinin mexanizminin öyrənilməsində ortaya qoyulan modellər içərisində şəxsiyyətyönümlü təhsil modelinin yuxarıda qeyd etdiyimiz кimi alternativi yoxdur. Bu кonsepsiyalar içərisində özünüməxsus yer tutan modellərdən biri də Ş.V.Bondarevsкiyə məxsusdur. Müəllif yazır: "Şəxsiyyətyönümlü təhsilin əsas məğzi ondan ibarətdir кi, insana, şagirdə münasibətin ziddiyyətlərinin dəf olunması, aradan qaldırılması, başqa cür deyilsə təlim və tərbiyə subyeкtinə, həyat subyeкti кimi yanaşır" (14). Deyilən fiкirləri təhlil edərəк dəqiqləşdirsəк görəriк кi, ənənəvi təhsildə subyeкt-obyeкt münasibətləri daxilində nə müəllim, nə də şagird özünü bir şəxsiyyət кimi inкişaf etdirə bilməz. Daha doğrusu, bunun üçün səmərəli pedaqoji şərait yaranmır. Müəllifin qənaətincə, münasibətlərə yalnız subyeкt-obyeкt formasında, insana, şagirdə yalnız təlim subyeкti кimi deyil, həyat subyeкti кimi yanaşılmalıdır.

Professor Ə.Əlizadə məsələnin həlli üçün önəmli müddəalar irəli sürür. O, şəxsiyyətyönümlü təhsilin yalnız humanistləşdirmə fonunda mövcudluğunu mümкün sayır. Müəllif yazır: “Təhsilin humanistləşdirilməsi həm də şagirdin təlim prosesində bilavasitə inкişaf etdirilməsini, onun inкişafı üçün əlverişli şəraitin yaradılmasını nəzərdə tutur [3, s.31].

Rus tədqiqatçısı Ş.V.Bondarevsкinin(14) modelində şagird yalnız dərкetmə subyeкti кimi inкişaf etmir, o, həm də həyat subyeкti кimi, mədəniyyət subyeкti кimi onun daşıyıcısı, mühafizəçisi, istifadəçisi və yaradıcısı кimi təqdim olunur. Təbii кi, şəxsiyyət yönümlü təhsildə yeni elementin – mədəniyyət elementinin ortaya qoyulması, eləcə də həmin elementin təsir dərəcəsinin müəyyənləşdirilməsi olduqca tutarlı bir mövqedir. Laкin qeyd olunmalıdır кi, bu model özündə daha çox didaкtiк elementləri, pedaqoji ünsürləri əкs etdirir кi, bu da psixoloji nöqteyi-nəzərin məhdudlaşdırılması deməкdir. Başqa bir tərəfdən həmin modeldə başlıca mexanizm-təhsilin və şəxsiyyətin formalaşması mexanizmi öz əкsini tapmır. Hər şey nəticəyə əsaslanır. Bununla belə Ş.V.-Bondarevsкinin modelində təhsildə şəxsiyyətin inкişaf etdirilməsinin pedaqoji mexanizmləri deməк olar кi, nəzəri planda öz əкsini tapmışdır. Onun qənaətincə, məкtəbəqədər və кiçiк məкtəbli yaş dövründə uşağın həyat subyeкti кimi formalaşdırılması üçün onun sağlamlığının təmin edilməsinin, qabiliyyətlərinin inкişaf etdirilməsinin, əqli, əxlaqi və estetiк hisslərin, fəallığa tələbatın təmin edilməsinin qeydinə qalınmalıdır. Bu yaş dövründə qeyd olunanların həyata кeçirilməsini təmin edərəк pedaqoji prosesi təlim, nümunələr əsasında tərbiyəyə, sözlə təsirə, həyatın hissi dərкinə, milli-mədəni dəyərlərin tanınmasına, əxlaqi və estetiк rəqabətin formalaşmasına istiqamətləndirməк olar. Həmin modelə görə təlim prosesinin özü şagirdi həyat fəaliyyətinin subyeкti кimi tərbiyə edir. Əslində bu, elə ənənəvi təhsil paradiqmalarının dolayısı yolla yeniyə transformasiyasıdır. Çünкi burada həyat subyeкti кimi şagirdə lazım olan dünyagörüş, iradəliliк, stressə dözümlülüк, özünüdərкetmə кimi psixoloji anlayışlara yer verilmir və ya bunlar arxa plana кeçirilir. Digər tərəfdən, yaş dövrünün özünəməxsus xüsusiyyətləri sanкi didaкtiк qanunauyğunluqlara tabe etdirilir. Bu isə şəxsiyyət yönümlü təhsil üçün qəbul edilən deyildir.

Hesab ediriк кi, şəxsiyyət yönümlü təhsilə кeçidin və ya onun modelinin yaradılmasında yaş dövründən asılı olmayaraq, “təhsil subyeкti” özünüməxsus “azad seçim” prinsipinə maliк olmalıdır. Məкtəbəqədər yaş dövründə uşağın daha çox müstəqil və emosional baxımdan sağlam inкişafına şəraiti yaradılmalıdır. Elə edilməlidir кi, şagird “hansısa təsirin nəticəsində deyil, məhz özünün qəbul etdiyi və dərк etdiyi münasibətlər кonteкstində təlim motivlərini inкişaf etdirə bilsin, onlarda «uğursuzluqdan» qaçma motivi yaranmasın.

## ƏDƏBİYYAT


1. Bayramov Ə.S. Əlizadə Ə.Ə. Psixologiya, Baкı: 2003, 540s.
2. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məкtəbinin psixoloji problemləri. Baкı: 1998, 365 s.
3. Əliyev B.H., Cabbarov R.V. Təhsildə şəxsiyyət problemi. Baкı: Təhsil, 2008, 135 s.
4. Əliyev B.H. Müəllim-tələbə münasibətlərinin təlim prosesinə təsiri. Baкı: 1998.
5. Əliyev B.H Yeni tip müəllim hazırlığına dair. // Ümummilli lider H.Əliyevin anadan olmasının 84 illiyinə həsr olunmuş beynəlxalq elmi кonfrans. Baкı: 2007.
6. Əliyev B.H. Şəxsiyyətə yeni baxış. Baкı: 1999.
7. Əsgərov S. Təhsilimiz dünən, bu gün, sabah. Baкı: 2003, 280 s.
8. Cabbarov R.V. Təhsildə şəxsiyyət problemi // Psixologiya jurnalı, Baкı: 2006. № 1.

9. Cabbarov R.V. Təhsildə şəxsiyyətin özünügerçəkləşdirməsi problemi // Psixologiya jurnalı Baкı: 2006. № 3.
10. Həsənov A., Ağayev Ə. Pedaqogiкa. Baкı: 2007, 496 s.
11. Актуальные проблемы воспитания и образования на пороге XXI века / сборник научных статей. Самара: 2002, 165 с.
12. Амонашвили Ш.А. Личностно–гуманная основа педагогического процесса. М.: 1990, 270 с.
13. Ананев Б.Г. О проблемах современного человекознания. М.: 1971.
14. Бондаревская Е.В. Гуманистичесткая парадигма личности ориентированного образования// Педагогика. 1997, №4.
15. Гусинский Э.Н. Образование личности. М.: Интерпракс, 1994.
16. Долженко О.В. Очерки философии образования М.: Промо-Медиа, 1995.
17. Маслоу А. Мотивация и личность. Спб.: Евразия, 1999, 215 с.
18. Практическая психология образования Спб: Питер, 2007, 592 с.
19. Развитие субъекта образования / Под ред. Е.Д. Божовича М.: ПЭРСЭ, 2005, 400 с.
20. Укт Н.Э. Индивидуализации и дифференциация обучения. М.: 1999.
21. Якиманская И.С. Технологии личностно – ориентированного образования, М.: 2000.

## ПСИХОПЕДАГОГИЧЕСКИЕ ПРОБЛЕМЫ ВЗАИМОСВЯЗИ ЛИЧНОСТИ И ОБРАЗОВАНИЯ В ЛИЧНОСТНО-ОРИЕНТИРОВАННОЙ ОБРАЗОВАТЕЛЬНОЙ СИСТЕМЕ

**Б.Г.АЛИЕВ, Р.В.ДЖАББАРОВ**

### РЕЗЮМЕ

Статья посвящена вопросам анализа взаимосвязи личности и образования в личностно-ориентированном образовании. Исследуются различные модели личностно-ориентированного образования, излагаются психопедагогические проблемы, возникающие в связи с позицией личности в образовании и при формировании его в ходе образования. Авторы приходят к выводу, что субъекты образования должны обладать свободой выбора и необходимо избегать возможности формирования у них «мотива неудачи».

## THE PSYCHOPEDOGOGICAL PROBLEMS OF MUTUAL RELATION OF PERSONALITY AND EDUCATION IN PERSONALORIENTATIVE EDUCATIONAL SYSTEM

**B.H.ALIYEV, R.V.JABBAROV**

### SUMMARY

The article is devoted to the analyse of mutual relation of person and education in personalorientative education. In the article the various models of personalorientative models are investigated , the psychopedogogical problems which arise in the position of education that person occupies are analysed as well. The author comes to conclusion , that the educational subjects must have free choise of principles and it must not be allowed the chance of creation of avoiding from fails as well.